# Vüqar Əhməd yaradıcılığında Qarabağ mövzusu

**Dilbər Rzayeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: aziza_rzaeva@mail.ru

**Annotasiya.** Professor Vüqar Əhməd Güney Azərbaycan tarixi və ədəbiyyatını, Cənubun görkəmli şəxsiyyətlərinin ədəbi yaradıcılıqlarını diqqətlə araşdırıb üzə çıxaran, nəşr etdirən mütəxəssislərdən biridir.
Vüqar Əhmədin yaradıcılığı çox zəngindir. O öz publisistik yaradıcılığı ilə yanaşı, hekayələri, esseləri, ədəbi tənqidi məqalələri, monoqrafik tədqiqatları ilə də ədəbi-elmi dairələrdə tanınır.
Vüqar Əhmədin yaradıcılığında vətən, vətənsevərlik, milli varlıq baş mövzudur. O, vətənin, vətən torpaqlarının, ana dilinin müqəddəsliyini publisistik yazılarında da yüksək səviyyədə obrazlı, ehtiraslı, bədii bir dillə tərənnüm edir. Qarabağ problemi onu daim düşündürür və bir sıra əsərlərində həmin problemlə bağlı maraqlı fikirlər söyləyir.
Azərbaycan xalqının Qarabağ həsrəti, Qarabağ dərdi və Qarabağ ehtiyacını bütün dünya bilir. Həsrət, dərd və ehtiyacın bu və ya digər formada əksi Vüqar Əhmədin yaradıcılığında xüsusi bir xətt təşkil edir.
**Açar sözlər:** yazıçı, publisist, Vətən, Qarabağ, vətənpərlik, şeir, roman

**Məqalə tarixçəsi:** göndərilib – 05.11.2021; qəbul edilib – 14.11.2021

# The theme of Karabakh in Vugar Ahmad's creativity

**Dilber Rzayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: aziza_rzaeva@mail.ru

**Abstract.** Professor Vugar Ahmad is one of the specialists who attentively investigated and published the history and literature of South Azerbaijan and literary creativities of prominent personalities of the South.
Vugar Ahmad's creativity is very rich. He is known not only for his publicistic creativity, but also for his stories, essays, literary critical articles and monographic researches in literary and scientific fields.
Homeland, patriotism and national identity are the main themes in Vugar Ahmad's creativity. He glorifies the holiness of the homeland, country's lands and native language in his publicistic writings by a high level, figurative and artistic language. The Karabakh problem always makes him think and in a number of his works, he expresses interesting opinions on this problem.
The whole world knows about the longing for Karabakh, Karabakh sorrow and the need for Karabakh of Azerbaijani people. The reflection of longing, pain and need in one form or another occupies a special place in Vugar Ahmad's creativity.
**Keywords:** writer, publicist, Homeland, Karabakh, poem, novel

**Article history:** received – 05.11.2021; accepted – 14.11.2021





## Giriş / *Introduction*

Professor Vüqar Əhməd Güney Azərbaycan tarixi və ədəbiyyatını, Cənubun görkəmli şəxsiyyətlərinin ədəbi yaradıcılıqlarını diqqətlə araşdırıb üzə çıxaran, nəşr etdirən mütəxəssislərdən biridir.

Onun ədəbi-elmi fəaliyyətinin sərhədləri nə qədər geniş olsa da o, əsas gücünü Güney ədəbiyyatının tədqiqinə sərf edib. Şeyx Məhəmməd Xiyabani, Mircəfər Pişəvəri haqqında ilk fundamental tədqiqatlar Vüqar Əhmədi müasir ədəbiyyatımızın istedadlı və zəhmətkeş söz sahiblərindən biri kimi tanıtdırmışdır.

Vüqar Əhməd həm də uşaq ədəbiyyatının araşdırıcılarından biridir. Müstəqillik dövründə ali məktəblər üçün yazılmış "Azərbaycan uşaq ədəbiyyatı" dərsliklərindən biri də ona məxsusdur.

## Əsas hissə / *Main Part*

Vüqar Əhmədin yaradıcılığı çox zəngindir. O öz publisistik yaradıcılığı ilə yanaşı, hekayələri, esseləri, ədəbi tənqidi məqalələri, monoqrafik tədqiqatları ilə ədəbi-elmi dairələrdə tanınır.

Onun çoxşaxəli yaradıcılığı haqqında alimlərdən Vasim Məmmədəliyev, Yaşar Qarayev, Elman Quliyev, Rasim Nəbioğlu, Buludxan Vəliyev, Alim Nəbioğlu, şairlərdən Məmməd Araz, Musa Ələkbərli, Tofiq İmişli, Aslan Ağasəfa, Güney Azərbaycanda doktor Cavad Heyət, şair Savalan və başqaları qəzet və jurnallarda müxtəlif yazılar çap etdirmişlər.

Bütövlükdə Vüqar Əhmədin ədəbiyyatşünaslıq fəaliyyətinə nəzər yetirdikdə aydın hiss olunur ki, tədqiqatçı bu sahənin inkşafında böyük işlər görüb.

Akademik Vasim Məmmədəliyev Vüqar Əhmədin "Söz, musiqi, bir də mən.." kitabına yazdığı "Ön söz"də bildirirdi: "Mircəfər Pişəvərinin həyatı, mühiti, yaradıcılığı ilə bağlı monumental tədqiqatı ilə ədəbiyyatşünaslığımıza öz inamlı imzasını atan və gənc bir tədqiqatçı-alim kimi özünü təsdiq edən Vüqar Əhməd təkcə nəğməkar şair deyil, həm də istedadlı ədəbiyyatşünas alim, musiqi tədqiqatçısı kimi çoxşaxəli yaradıcılığı ilə ədəbiyyatsevər, musiqi duyumlu ədəbi ictimaiyyətin diqqətini özünə cəlb edə bilmişdir..." [2, s.3]

Vüqar Əhmədin yaradıcılığında vətən, vətənsevərlik, milli varlıq baş mövzudur. O, vətənin, vətən torpaqlarının, ana dilinin müqəddəsliyini publisistik yazılarında da yüksək səviyyədə obrazlı, ehtiraslı, bədii bir dillə tərənnüm edir. Qarabağ problemi onu daim düşündürür və bir sıra əsərlərində həmin problemlə bağlı maraqlı fikirlər söyləyir.

Azərbaycan xalqının Qarabağ həsrəti, Qarabağ dərdi və Qarabağ ehtiyacını bütün dünya bilir. Həsrət, dərd və ehtiyacın bu və ya digər formada əksi Vüqar Əhmədin yaradıcılığında xüsusi bir xətt təşkil edir.

Vüqar Əhmədin "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" (2012) avtobioqrafik romanı və erməni daşnaklarının iç üzünü açıb göstərən tarixi səpkili "Qaradağlılar" (2014) adlı trilogiyası xüsusilə ədəbi-bədii əhəmiyyətə malikdir.

Vüqar Əhməd "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" avtobioqrafik romanında vətən, torpaq, haqq yolunda birliyin qələbə yürüşünü yuxuda görsə də, həmin yuxuya oyanandan sonra belə mənalandırma verir: "Bircə onu bilirəm ki, bu yuxu olsa da, ruhum həqiqətən Qarabağa getmişdi. Bu, arzuolunan, gerçəkləşən bir röya idi, əfsanəvi həqiqət idi. Mən inanıram ki, uca yaradan bu yuxunu gerçəyə çevirəcək və türk oğlu türk düşmənin burnunu ovub Qarabağı azad edəcək".

"Əsər müqəddəs ruh və ideyaların təbliği fonunda xalqımız, eyni zamanda vətənimiz üçün vacib olan məsələlərin əksi baxımından əhəmiyyətlidir. Romanda memuarçılıq tərzi üstünlük təşkil etsə də, bu ideya Qarabağ qələbəsi üzərində qərar tutur. Müəllif haqlı olaraq Qarabağ "Qələbə marşı" nın "söz-musiqi" kompleksində milli birlik düşüncəsinin vacibliyini irəli sürür. Ona görə də vicdanlı, vətənsevər insanların birliyi əsərdə ideyanı doğuran başlıca amil səviyyəsində təqdim olunur. Romanda müəllif qələbəyə vətəndaş və türk birliyinin reallıqları

çərçivəsində yanaşır. Lakin əsərdə bəşəri kontekstin mövcudluğu vətəndaş və türk birliyini dünya sülhsevər qüvvələrinin birliyi xətti ilə üst-üstə qoymağa imkan verir. Bu mənada müəllif dünya siyasi liderləri, nizami ordu və könüllü xalq qruplarını təcavüzkar Ermənistanla son döyüşdə müəyyən mövqe sıralarında problemə həm qlobal, həm müstəvidə yanaşır, həm də qələbənin labüdlüyünü həmrəy olmaqda görür" [1, s.7].

"Qaradağlılar" romanı xalqın, vətənin, dövlətçilik ənənələrimizin əlvan və parlaq lövhələrini özündə əks etdirən qiymətli bir sənət əsəridir. Hadisə və olayları son dərəcə dəqiqliklə, obrazlı bədii vasitələrlə əks etdirən bu tarixi bədii əsər olmaqla yanaşı, zəngin məlumatları özündə yaşadan informasiya mənbəyi və ensiklopedik yaddaş kitabıdır.

Yazıçı-publisist Loğman Rəşidzadə "Roman-xronologiya, yaxud milli yaddaşın tarixi xronoto" adlı məqaləsində "Qaradağlılar" romanını tarixi-bədii məziyyətlərini belə səciyyələndirir:

"Qaradağlılar" romanı xalqın, vətənin, dövlətçilik ənənələrimizin əlvan və parlaq lövhələrini özündə əks etdirən qiymətli bir sənət nümunəsidir. Hadisə və olayları son dərəcə dəqiqliklə, obrazlı bədii vasitələrlə əks etdirən bu həssas tarixi mənbə bədii əsər olmaqla yanaşı, zəngin məlumatları özündə yaşadan düşüncə saxlancı, informasiya mənbəyi və ensiklopedik yaddaş kitabıdır. Vüqar Əhməd "Qaradağlılar" romanında Azərbaycan xalqının böyüklüyünü böyük yazıçı iddiasıyla önə çəkir və sübut edir. Xalq məhəbbəti bir ziyalı-ədib kimi, onun üçün eləcə dinçilik səviyyəsindədir. Vüqar Əhməd vətən sevdalısı kimi öz ürəyini, sevgisini, torpağa, yurda əbədi vurğunluğunu romanın hər səhifəsində, bütün məqamlarda leytmotivə çevirir" [3].

Yazıçı "Son nəfəsədək Azərbaycan" əsərində də real, təbii, gerçək hadisələri qələmə almışdır. Roman ilk dəfə 22 noyabr 2013-cü il "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı"na müvafiq olaraq çap edilib. Əsərdə Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan xalqına və torpağına göstərdiyi danılmaz xidmətlər, eyni zamanda başına gələn hadisələr, "Azərbaycan Demokratik Cumhuriyyəti"ni yaradanların heyrətamiz vətənpərvərliyi, xalqın qeyrətli oğullarının Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi, daşnakların, onların başçısı Stepan Şaumyanın və ümumiyyətlə ermənilərin xalqımıza qarşı apardığı soyqırım siyasəti, Şura hökumətinin vətənimizə gətirdiyi bəlalar öz əksini tapmışdır.

"Şərqdə ilk Demokratik Cümhuriyyətin banilərindən olan Məhəmməd Əmin Rəsulzadə haqqında roman yaratmaq özü bir hünərdir. Burada irəlidə qeyd etdiyimiz kimi, müəllifin arxiv araşdırmaları, elmi-nəzəri hazırlığı, tarixi qaynaqlara, faktik sənədlərə dərindən bələdliyi, əlbət ki, türkçülük, azərbaycançılıq, islamçılıq ideyası ətrafında bir ziyalı olaraq mövqeyi də müəyyənləşməlidir. Təqdim olunan tarixi sənədlər yorulmaq bilmədən, nəfəs dərməyə belə qoymadan oxucunu öz ardınca aparır, əslində, bədii əsərdə xronoloji materialın bolluğu bədiiliyi bir qədər kənarda saxlaya bilsə də, yazıçı təhkiyəsi, obrazlı təsvir vasitələri bu problemi aradan qaldırır. Əsərin mövzu axarında təkcə ictimai-siyasi problemləri deyil, həm də bu hadisələrin arxasından boylanan ailə-məişət münasibətlərini, milli-mənəvi dəyərlərimizin qorunması uğrunda çarpışan insanların əməllərini, fədakarlığını, əzmini görürük" [5].

Azərbaycan xalqının Qarabağ həsrəti, Qarabağ dərdi və Qarabağ ehtiyacını bütün dünya bilir. Həsrət, dərd və ehtiyacın bu və ya digər formada əksi Vüqar Əhmədin yaradıcılığında xüsusi bir xətt təşkil edir. Vüqar Əhməd yaradıcılığında həmin ideyaların tərənnümçüsü, həm də təbliğatçısıdır. Moskvada, Tehranda, İsveçdə, Latviyada, İstanbulda və s. yerlərdə keçirilən Qarabağ mövzusu şairin çıxışlarının leymotivinə çevrilir.

Vüqar Əhmədin pyes və hekayələrində xalqımızın başına gətirilən bəlalar, bu bəlaların törətdiyi faciələr inandırıcı bədii boyalarla təsvir edilir. Onun "Dil pəhləvanı" adlı pyesini həyəcansız oxumaq qeyri-mümkündür. Pyes Qarabağ mövzusuna həsr olunmuşdur. Əsərin əsas sujet xətti Vətən uğrunda döyüşlərdən boyun qaçıran bir kişinin – "Dil pəhləvanı"nın ifşası üzərində qurulub. Əsərdə təsvir olunan Kişi obrazı özünü cəsur, qəhrəman kimi qələmə verir.





Əslində isə obrazın bütün qəhrəmanlıqları elə sözdədir. Arvadın "ermənilər sarı köpəklərin köməyi ilə Qacəristanı aldılar xəbərini Kişi həyəcanla qarşılayır: "Mən orda olsaydım, avtomatla onların hamısını öldürərdim", – deyərək özünü öyür.

Qarabağımızı erməni mənfurlarının caynağından xilas etmək üçün sinəsinə döyən "Dil pəhləvanı" müqəddəs torpağımızın azad edilməsi məqamı gəlib çatdıqda qorxaqcasına cəbhəyə getməkdən boyun qaçırır. Hətta arvadının səni tutub saxlayan var? Get vuruş, milli qəhrəman da ol" deyəndə o, yaşının 45-i ötdüyünü söyləyərək özünə haqq qazandırmağa çalışır. Onu hərbi komissarlığa çağırdıqda, yaşının çox olduğunu, gözlərinin zəif gördüyünü bəhanə gətirərək kağıza imza atmaqdan imtina edir. O, öz mənafeyini xalqın, vətənin mənafeyindən üstün tutaraq çirkin əməllərinə haqq qazandırmağa çalışır.Yazıçı əsərdə obrazın bütün daxili eybəcərliyini, acizliyini açıb göstərir.

Pyesdə təsvir olunan qadın obrazı isə öz vətənpərvərliyi, cəsurluğu, dürüstlüyü ilə diqqəti cəlb edir. Kişi cəbhəyə getməkdən boyun qaçırdığında: "Vaxsey, biabır olduq, bu lap dovşan ürəkliymiş ki. Amma danışanda elə bil bir dənə pələngdir", – deyərək onun yerinə xəcalət çəkir.

Tədqiqatçı Gülbəniz Babayeva əsərdə təsvir olunan obrazların xarakterik xüsusiyyətlərini belə dəyənləndirir: "Təəssüf ki, Qarabağda şiddətli döyüşlər getdiyi, xalqımızın ölüm-dirim savaşı ilə üz-üzə dayandığı o ağır sınaq dövründə bu əsərin mənfi personajı kimi "mən salim olum..." prinsipi ilə yaşayanlar, orda-burda gizlənərək mənəvi ucalığa yüksələ bilməyən fərarilər də olmuşdur. Belələrinin bu torpaq üzərində gəzməyə, onun havasını udub, suyunu içməyə belə haqqı yoxdur. Yazıçı əsər boyunca bu satirik tipin xarakterindəki mənfilikləri, daxili puçluğu, cılızlığı elə onun öz dili ilə açıb göstərir, tənqid hədəfinə çevirir və oxucunun ağır ittihamı ilə üz-üzə qoyur" [4].

Əsərdə müəllif hər bir Azərbaycan türkünə böyük ibrət dərsi verir, Vətənin müdafiəsi naminə birliyə səsləyir.

Tarixi mövzuda yazdığı "Koroğlu" (2020) romanı Vüqar Əhmədin dördüncü romanıdır. Vüqar Əhmədin "Koroğlu" dastanının motivləri əsasında yazılmış roman Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsinə ithaf olunub.

Filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy roman haqqında fikirlərini belə qeyd edir: "Vüqar Əhməd bu əsəri Azərbaycanın qəhrəmanlıq tarixinə adını qızıl hərflərlə yazmış, eyni zamanda azğın düşmənə Azərbaycan əsgərinin onların düşündüyü kimi zəif, qorxaq, aciz deyil, yer üzündə tayı-bərabəri olmayan, cəsarəti, rəşadəti bütün dünyaya nümunə ola bilən bir əsgər olduğunu bir neçə saatın ərzində yüzlərlə erməni dığasını cəhənnəmin dibinə göndərmiş Mübariz İbrahimova ithaf etmişdir. Əslində, həqiqətən də, Mübariz İbrahimov Koroğluya çox bənzəyir. Etiraf etmək lazımdır ki, biz bir xalq olaraq zəmanəmizin Koroğlusunu çoxdan gözləyirdik və budur, Koroğlu yeni qiyafədə, artıq Misri qılıncla yox, müasir silahlarla silahlanmış, lakin fiziki qüdrətindən, zirəkliyindən, qorxmazlığından, vətənpərvərliyindən, basılmazlığından, yenilməzliyindən, yüksək mənəvi keyfiyyətlərindən, nəcib sifətlərindən, əməlisalehliyindən, işıqlı imanından, eyni zamanda qüsursuz yaraşıqlı görkəmindən Koroğlunu bizə çox xatırladan yeni bir Koroğlu peyda oldu. Və gəlişilə hələ qiyamətə qədər də Koroğluların doğulacağını populist nitqlərlə, alovlu çıxışlarla yox, heyrətamiz ruhu, cəsurluğu və fövqəladə hərbi bacarığı ilə bəyan etdi" [6].

Vüqar Əhməd yaradıcılıq yoluna şeirlə başlayıb. Ölməz klassiklərimiz və XX əsrin böyük şairlərindən bəhrələnən Vüqar Əhməd Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığından ilham alaraq poeziyamıza qədəm qoyub. Vüqar Əhməd şeirimizə öz dəst-xəttilə, yeni nəfəs gətirməklə poeziyamızda yeni bir cığır açıb. Hələ tələbəlik illərində böyük xalq yazıçımız İsmayıl Şıxlıdan, şairlərdən Zahid Xəlil, Firuzə Məmmədli, görkəmli ədəbiyyatşünas, dilçi-alimlərdən Xeyrulla Məmmədov, Himalay Qasımov, Qəzənfər Kazımov, Abbas Hacıyev kimi müəllimlərdən dərs alması, xalq şairləri Nəbi Xəzri və Cabir Novruzla sıx təmasda olması, Xalq şairi Məmməd Arazdan mənəvi dəstək və xeyir-dua alması onun bir şair kimi yetişməsində mühüm rol oynamışdır.

Xalq şairi Məmməd Araz Vüqar Əhmədin "İlhamım gələndə" kitabına yazdığı ön sözündə

onun yaradıcılığını belə səciyyələndirir: "Yaradıcılığını izlədiyim qələm, söz sahiblərindən biri də Vüqar Əhmədir. O, bizim klassiklərə, yaşlı nəsilə mənsub şairlərin yaradıcılığına hər zaman həssas yanaşmış, onların poeziyalarından bəhrələnmiş, öz töhfələrini vermişdir. Vüqar poeziyamızda öz inamlı addımlarını atır. Inanıram ki, Vüqar bundan sonra da öz oxucularını təzə-təzə şeirləri ilə sevindirəcək və onlara mənəvi zövq verəcək" [7, s.3].

Bildiyimiz kimi, Vüqar Əhməd yaradıcılıq yolunda poema janrına da müraciət edib. Şairin indiyə kimi "Anam mənim", "Məhəbbət poeması", "Əski məhəllə", "Ağlayan uşaq", "Abşeron" adında 5 poeması işıq üzü görüb. "Məhəbbət" poeması 203 misradan ibarətdir. Poemada Vüqar Əhməd Vətənə məhəbbət hissini ön plana çəkir:

*Vətən məhəbbəti necə müqəddəs,*
*Onu sevməlidir, hər insan hər kəs...*
*Sözüm odur, biz Vətəndən doymayaq,*
*Düşmən qabağında biz qul olmayaq.* [7, s.56]

Şairin 2005-ci ildə nəşr olunan "Yaxşı günlər öndədir" kitabı "Vətəndir" qəzəli ilə açılır.. Mənə elə gəlir ki, "Vətəndir" qəzəlində qəzəlxanımız Vahidin ruhu duyulur, bəhrələri hiss olunur. Dahi şairlərin əsərlərində də vətən mövzusu başlıca anlam təşkil edir. Vüqar Əhmədin "Vətəndir" qəzəlində bütöv Azərbaycan vəsf olunur:

*Qoy sizə ərz eləyim dönə-dönə, Vətəndir,*
*Harda "Segah" çalınsa, ora mənə Vətəndir.*

*Qibləgahım, məbədim, son pənahım Vətəndir,*
*Dinim, Kəbəm, Quranım, səcdəgahım Vətəndir.*

*Bakı, Gəncə, Naxçıvan, Qarabağım Vətəndir,*
*Göz açdığım Abşeron, göy Xəzərim Vətəndir.*
[2, s.12]

Vətən, Torpaq dərdini, son gümanı olan Vətəninə sevgisini, segaha olan qayğını, hörmətini ümuminin dərdinə çevirməyi bacarır. Şair xalq üçün, Vətən üçün alışıb-yanmasa soydaşlarına haqq və həqiqət yolunu göstərə bilməz. Bir sözlə, şair dünyaya yaşamaq üçün deyil, özünü yandırıb başqalarını yaşatmaq üçün gəlir, xalqının yaşadığı vəziyyəti öz şəxsi dərdi kimi qəlbində daşımalıdır.

Şairin yurduna, vətəninə olan sevgisi, onun düşmənlərinə nifrəti, kini sözə çevriləndə gülləyə dönür, oxucunun hisslərini alovlandırıb qəlpəyə çevirir.

*Qarabağım yenə mənim olaydı,*
*Düşmənlərim cəhənnəmdə yanaydı,*
*Vətən məni ona oğul sanaydı,*
*Şükr edərəm mən buna da, bəsimdir.* [2, s.15]

Bu misralarda nə qədər dərin hikmət var – Qarabağın azad olması, düşmənlərdən intiqam almaq və Vətənin səni oğul sanması. Bu, şairin arzusudur, harayıdır... Şair yüzlərin, minlərin arzusunu və harayını ümumiləşdirərək ümumi bir şəkildə öz qəlb döyüntülərini misralara düzür.

Vüqar Əhməd poeziyasının özəyini, rişəsini, canını, qanını, Qarabağ ağrısı, Qarabağ faciəsi, Qarabağ yarasıdır. O, əksər şeirlərdə birbaşa, bəzən də tamam ayrı mövzularda yazdığı, poetik nümunələrdə bir misra ilə də olsa belə, Qarabağ dərdinə toxunmadan keçə bilmir. "Cənnət Qarabağ" şeirindən bir parça Vüqar Əhmədin şair qəlbinin harayıdır:

*Ağdamım, Laçınım, Füzulim mənim,*
*Ləhcəsi şəkərdən şirinim mənim.*
*Ləhcəsi şirindən şirinim mənim,*
*Dərdlərin qəlbimə çəkib dağ mənim.*

*Həsrət qalıb ağlar gözüm üzünə,*
*Nəğmə qoşdum bayatına, sözünə,*
*Əlim çatmır əsir Cıdır düzünə,*
*Nəmli yanaq, cənnət-məkan Qarabağ.* [7, s.24]

V.Əhmədin yaradıcılığında milli ruh, vətəndaşlıq motivləri, tarixə, kökə qayıdış, yurd, torpaq həsrəti mühüm yer tutur. Onun vətənpərvərlik mövzusunda yazdığı şeirlərdə həyat, milli mənlik, tariximiz və hətta dünya hadisələri öz əksini tapır. Şair yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm edib. Onun şeirlərində türkçülük, Azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir. Vətən duyğusu "Vətəni qorumağa" adlı şeirində öz əksini tapır:





Azərbaycan Milli Elmlər Akademiyası

*Sola döndüm, döndüm sağa,*
*Yol verməərəm yad qonağa,*
*Yaş düşməsin bir yanağa,*
*Son qoyaraq ağlamağa,*
*Bu Vətəni qorumağa.*

*Sərkərdəmiz versə fərman,*
*Biz hazırıq hər gün, hər an,*
*Andımızdır bayraq, Quran,*
*Haydı, gedək Qarabağa,*
*Bu Vətəni qorumağa.* [7, s.22]

Şair-publisist Vüqar Əhməd yaradıcılığı boyu şifahi xalq ədəbiyyatından, onun ayrı-ayrı janrlarından bəhrələnmişdir. Vüqar Əhmədin Qürbət sıxıntısı, ayrılıq, Vətən, Qarabağ məhəbbəti ilə bağlı "Vətən bayatıları" adlı silsilə bayatıları daha çoxdur. Məsələn:

*Yol getdim Qarabağa,*
*Qoymadılar qabağa,*
*Öz doğma Vətənimdə*
*Mən dönmüşdüm dustağa.*

*Borana bax, qara bax,*
*Qara bəxtli Qarabağ.*
*"Aləm cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ".* [2, s.34]

Vüqar Əhmədin "Qarabağdır" adlı şeirində müəllifin keçirdiyi hiss-həyəcan daha canlı ifadə olunur:

*Nə zamandır torpaqlarım işğaldadır,*
*Gör bu elim, bu Vətənim nə haldadır?*
*Qarabağda qulaq səsdə, göz yoldadır,*
*Torpaqlarım təzdən mənim olmayınca,*
*Ömrüm-günüm, yaşamağım mənə dağdır,*
*Hissim, duyğum, arzularım Qarabağdır.* [2, s.23]

Xanın, Bülbülün, Natəvanın oylağı olan Şuşa dərdi, Şuşa itkisi şairin ən yaralı yeridir. "Qarabağdayam" adlı fəlsəfi şeirində şair belə yazır:

*Şuşanı yuxumda gördüm dün gecə,*
*Şəhərim bərbaddı, İlahi necə?!*
*Gecəykən röyada gündüz, həm gecə,*
*Cənnət bağındayam-Qarabağdayam.* [7, s.26]

Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var: Şəhidlik zirvəsi. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq isə ən böyük şərəf və qürurdur. Tanrı dərgahında şəhidlik mərtəbəsi peyğəmbərlikdən sonra ən yüksək zirvədir. Şəhidlərin Allah qatındakı məqamı ilə bağlı Qurani-Kərimdə buyurulur: "Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz". (Bəqərə, 154)

Vətən, xalq, torpaq yolunda döyüşən Qarabağ qəhrəmanları Vüqar Əhmədin vətənpərvərlik ruhlu şeirlərində də öz əksini tapmışdır. Vətən torpağının azadlığı uğrunda şəhid olan oğullarımızın xatirəsini əziz tutan şair şəhidlik zirvəsini ən uca dağ sayır. Şəhid olan Qarabağın, Şuşanın fəryadına səs verməyimizi, ona yardımçı olmağımızı istəyir:

*Bütün yer üzündə hey qalmaqaldır,*
*Şəhidlik zirvəsi-ən uca dağdır,*
*Şəhidlər Şuşadır, hey Qarabağdır,*
*Koroglum, Qoç Nəbim, qoçdu Şəhidlər,*
*Bu şeiri sizlərə qoşdum, Şəhidlər!* [2, s.33]

Şəhidlərimizi Koroğlu, Qoç Nəbi ilə müqayisə etməklə şair gənc nəsildə hərbi-vətənpərvərlik tərbiyəsinin düzgün formalaşması yollarında istiqamətverici qüvvə rolunu oynayır. Azərbaycan Dövlət müstəqilliyinə, dövlətimizə, Himnimizə, ordumuza və nəhayət, üçrəngli bayrağımıza hörmət və ehtiram edilməsini xüsusi vurğulayır:

*Üş rəngli bir röyası var,*
*Dünyada türk dünyası var,*
*Milli himni, havası var,*
*Azərbaycan bayrağında.* [2, s.54]

"Şəhidim" şeirində Vüqar Əhməd şəhidlərimizin ümumiləşdirilmiş obrazını dolğun şəkildə verə bilib:

*Vətən torpağını qucan şəhidim,*
*Ruhları göylərə uçan şəhidim,*
*Torpağa qovuşdun haçan, şəhidim?*
*Ömrü yarı qalan nakam şəhidim".* [7, s.31]

Azərbaycan tarixinin şanlı səhifələrinə adını qızıl hərflərlə yazan mərdliyi, igidliyi ilə qəlbləri fəth edən şəhid general Polad Həşimovun xatirəsinə həsr etdiyi şeirində isə Milli Qəhrəmanımızın şəhid olması ilə kədərlənən şair ürək yanğısını poetik misralarla belə ifadə edir:

*Şəhid oldu el uğrunda bir paşa,*
*Candan keçdi İlqar ilə o qoşa,*
*Behiştdəsən, ölməmisən! SƏN YAŞA!!!*
*Polad iradəli, ay Polad paşam.*

*Mehdinin, Həzinin yolunu tutdun,*
*Düşmənin sağını, solunu tutdun,*
*Sonda, qəhrəmanım, ölümü tutdun,*
*Polad iradəli, ay Polad paşam. [8]*

Qarabağ savaşında bir neçə düşməni məhv edəndən sonra ermənilərin minamyot zərbəsindən kontuziya alan, lakin buna baxmayaraq, iki yaralı əsgərini yoxuşla aparıb bir yerə salan və özünün təcili yardıma ehtiyac olduğu halda, həmin iki əsgərə tibbi yardım göstərən və düz on iki saat ermənilərin raket yağışından həmin iki əsgəri qoruyan baş leytenant igid Mətin Həsənova həsr etdiyi şeir möhtəşəm poetik abidə kimi əvəzsizdir.

*Ucaltdıqca Qarabağda o müqəddəs hilalı,*
*Bir bayraqdarı oldun, o müqəddəs cihadın.*
*Sildin artıq üstümüzdən otuz illik zavalı,*
*Bir qızıl səhifə ilə tarixlərə düşdü adın.*
*Nə şanlı imiş əməlin, nə gözəlmiş amalın,*
*Ey bir nəslin qüruru, xalqın qəhrəman övladı.[8]*

Vüqar Əhmədin "Şəhid anası" şeiri dərdi ilə ucalan, dərdi ilə qürur heykəlinə çevrilən analar haqqındadır. Bu şeir Vətən torpaqlarının azadlığı uğrunda əziz oğlunu şəhid vermiş QƏHRƏMAN ANANIN iniltisi, ayrılığa, haqsızlığa hayqırtısıdır...

*Kandarda oturub bir qəmgin ana,*
*Göz yaşı tökürdü o, yana-yana.*
*Oğlu şəhid olmuş, boyanmış qana,*
*Şuşanı qaytarmış Azərbaycana. [2, s.54]*

Vüqar Əhməd dəfələrlə müqəddəs ziyarətgahlarımızda olub. O, 1993-cü ildə İmam Rza ziyarətində olduqca, ağlaya-ağlaya dualı əllərini açaraq Allahla ünsiyyət yaradıb, Qarabağımıza azadlıq, xalqımıza xoş günlər diləyib. Çox şükür ki, şairin arzuları çin oldu. Axır ki, torpaqlarımız işğaldan azad olundu...

44 günlük əzəmətli mübarizəmiz və zəfərimiz Vüqar Əhməd poeziyasına bir sevinc, qürur hissi gətirdi. Vüqar Əhmədin Vətən müharibəsi ərəfəsində yazdığı zəfər şeirlərində Vətən sevgisi, ordumuzun şanlı qələbələri, Ali Baş Komandanın müdrik siyasəti, işğaldan azad olunmuş torpaqlarımızın tərənnümü əks olunmuşdur.

Müzəffər Azərbaycan ordusunun qələbələri, xüsusilə Şuşanın işğaldan azad olunması və düşmənin kapitulyasiya aktını imzalaması Ali Baş Komandanın gərgin əməyinin nəticəsidir. Həmin qələbələrə Azərbaycan xalqı ilə yanaşı, vətənin hər daşı-torpağı, canlı aləmi, habelə şəhidlərimizin ruhları da sevinir.

*Düz 30 il səbirlə biz qələbə gözlədik,*
*Kim deyər ki, həsrətdən, ayrılıqdan bezmədik,*
*Nəhayət ki, işğala sükür olsun dözmədik,*
*Sevir Azərbaycanı – Ali Baş Komandanım!*

*Zəfərləri eşitdik, Başqan, sənin dilindən,*
*Milyon insan köçkündü obasından, elindən,*
*Millət ayrı düşmüşdü "Xarı bülbül" gülündən,*
*Sevir Azərbaycanı – Ali Baş Komandanım! [8]*

"Ali Baş Komandanım", "Qarabağ Azərbaycandır","Qələbə ətirli Qarabağdayam", "Şəhidlər","Qarabağ Azərbaycandır", "Vətəndir", "Şəhidlər", "Vətənimdir", "Azərbaycan bayrağı", "Vətən bayatıları", "Cənnət Qarabağ", "Vətənimi qorumağa", Əsgərə məktub", "Zəfər marşı", Qarabağ haqqında Esse", "Torpağımız alınandan" və s. şeirlərinin hər biri məna tutumu, bədii sənətkarlıq məziyyətləri ilə diqqəti cəlb edir. Torpaqlarımız işğaldan azad olunduğu zaman şairin yazdığı bu şeirlər həm düşündürücü, həm də səfərbəredicidir.

Vətən savaşı bir daha Azərbaycan xalqının birlik və bərabərliyini dünyaya nümayiş etdirdi. Ali Baş Komandanın Savaşa çağırış Şüarı – "Qarabağ Azərbaycandır" ifadəsi torpaqlarımızın azadlığı üçün əsas şərtlərdən idi. Vüqar Əhmədin poeziyasında bu birlik və bərabərlikdən doğan sevinc zəfər sevinci qədər önəmli yer tutur. Birlik və bərabərliyimizi dəyərləndirən şair "Qarabağ Azərbaycandır" şeirində Zəfərimizin







gözəl birlik-bərabərlik, xoşbəxtlik tablosunu yaradır. Şeirdə Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev birliyinin, qardaşlığının da böyük əhəmiyyəti olduğu vurğulanır:

*Açıldı göy səması*
*Qarabağın səfası,*
*Şikəstənin sədası.*
*Güldü ellər, obalar,*

*Güldü nənə, babalar,*
*Tüstüləndi sobalar,*

*Çalındı şən havalar.*
*Cənnətə uçdu şəhid,*

*Mələklər buna şahid,*
*Nə kafirəm, nə zahid,*
*Fəqət, Rəbbi sevirəm.*
*Heç sevmədim sərvəti,*

*Rəbbə dedim xəlvəti,*
*Tanrım söylə cahana: –*
*Qarabağ Azərbaycandır!!!*
*İlhamla Ərdoğandır!!! [8]*

**Nəticə / *Conclusion***

Vüqar Əhmədin qələmə aldığı zəfər şeirləri Azərbaycan poeziyasında Vətən müharibəsi mövzusuna həsr edilmiş poetik nümunələrdir. Azərbaycan gənclərinin hərbi vətənpərvərlik duyğularının aşılanması istiqamətində Vüqar Əhmədin şeirləri tərbiyə vasitəsi kimi böyük əhəmiyyətə malikdir.

**Ədəbiyyat / *References***


1. Aynurə Əliyeva. Qəlbi min bir mahnı olan şair Vüqar Əhməd (metodik vəsait) (F.Köçərli adına uşaq kitabxanasında çap olunmuşdur). Bakı, 2018.
2. Vüqar Əhməd. Söz musiqi bir də mən... Bakı: "MBM", 2003.
3. Loğman Rəşidzadə. "Roman-xronologiya yaxud milli yaddaşın tarixi xronoto" https://sabaha-inamla.az/
4. Lalə Əlizadə. Son nəfəsədək Azərbaycan. "Ədəbiyyat qəzeti", 12 mart 2019.
5. Gülbəniz Babayeva. Vüqar Əhmədin yaradıcılığında satira. https://moderator.az
6. Seyfəddin Rzasoy. "Ədəbiyyat qəzeti", 2020, 8 avqust.
7. Vüqar Əhməd. İlhamım gələndə. Bakı, 2003.
8. Vüqar Əhməd bir əsgərdi, siyahıya onu da yaz... https://moderator.az.


## Карабахская тема в творчестве Вугара Ахмеда


**Дильбер Рзаева**
Институт литературы им. Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: aziza_rzaeva@mail.ru



**Резюме.** Профессор Вугар Ахмед один из специалистов, внимательно изучивший историю и литературу Южного Азербайджана, представивший к публикации художественное творчество известных личностей Юга.

Творчество Вугара Ахмеда очень богато. Кроме своего публицистического творчества, он известен в литературно-научных кругах своими рассказами, эссе, литературно-критическими статьями, монографическими исследованиями. Главной темой в творчестве Вугара Ахмеда является родина, патриотизм, национальная сущность. В публицистических трудах он страстно воспевает на высоком образном уровне художественным языком родную землю, священный родной язык. Его постоянно занимает Карабахская проблема и в ряде своих

произведений он высказывает по ней интересные мысли. О тоске азербайджанского народа по Карабаху, трагедии Карабаха и надежде на его возвращение знает весь мир. И отражение этой тоски, трагедии и надежды в той или иной форме проходит главной линией в творчестве Вугара Ахмеда.

**Ключевые слова:** писатель, публицист, Родина, Карабах, патриотизм, стихотворение, роман